**UOT 316.3**

# XARİCDƏ TƏHSİL İMKANLARININ TƏKMİLLƏŞDİRİLMƏSİNDƏ BEYNƏLXALQ TƏRƏFDAŞLIQ AMİLİ

**Lamiyə Mübariz qızı Rəsulova**
*Bakı Qızlar Universitetinin magistrantı*
**ORCİD:** 0009-0007-5991-5108
**E-mail:** lamiye.resulova@gmail.com

***Açar sözlər:*** *təhsil, xaricdə təhsil, beynəlxalq tərəfdaşlıq, müasir inkişaf, beynəlmiləlləşmə*
***Ключевые слова:*** *образование, учиться за гранией, международное партнерство, современное развитие, интернационализация*
***Key words:*** *education, study abroad, international partnership,modern development, internationalization*

Qloballaşan cəmiyyətdə təhsil sahəsində beynəlxalq tərəfdaşlıq əlaqələrinin prioritetləşdirilməsi çox vacibdir. Qlobal təhsil problemlərinin həlli və hamı üçün keyfiyyətli təhsilə çıxışı gücləndirməkdə tərəfdaşlıqların qurulmasının zəruriliyi dərk edilməlidir. Hazırda qlobal diqqət dünyanın hər yerində insanların maarifləndirilməsinə yönəlib ki, bu da beynəlxalq təhsilin inkişafına gətirib çıxarır. Bu baxımdan beynəlxalq tərəfdaşlıq sahəsində universal strategiyaların hazırlanması məsələsi öz aktuallığını bütün dövlətlər və təhsil sistemləri üçün qoruyub saxlayır. Ali təhsilin qlobal arenaya inteqrasiyası məhz beynəlxalq əməkdaşlıq üzərində təşəkkül tapır. Bu da xaricdə ali təhsilə dövlət siyasətinin təsirini artırır, eyni zamanda özündə iqtisadi bazarın xüsusiyyətlərini daşıyır. 1960-cı illərdən başlayaraq artıq universitetlər beynəlxalq əməkdaşlığa qoşulurlar. Beynəlxalq tərəfdaşlıqda əsas məsələ infrastrukturun təkmilləşdirilməsidir. Yerli universitetlər bazar iqtisadiyyatı şəraitində rəqabət aparmaq üçün xarici ölkələrin ali təhsil müəssisələri ilə beynəlxalq tərəfdaşlıq əlaqələri yaradırlar.

İngilis alimi Viktor Dammeyə görə, ali təhsildə beynəlxalq komponentlərin artması ali təhsilin keyfiyyətinə birbaşa təsir göstərir ki, bu da universitet məzunlarının qlobal əmək bazarında rəqabətqabiliyyətliliyi baxımından mühüm əhəmiyyət kəsb edir. Bu yanaşmadan da aydın görünür ki, xaricdə təhsil beynəlxalq tərəfdaşlıq aspektindən baxdıqda universitet-biznes modelinin mövcudluğunu qaçınılmaz edir. Təhsil xidmətləri bazarının inkişaf etdirilməsi dövlət səviyyəsində, milli iqtisadiyyat çərçivəsində baş verir. Deməli, beynəlxalq tərəfdaşlıq anlayışı içərisində bizi yeni bir termin *təhsil xidmətləri* qarşılayır. Təhsil xidmətləri geniş anlayışdır.

O. V. Saqinova qeyd edir ki, təhsil xidmətinin daha bir spesifik əlaməti odur ki, istehlakçı təhsil xidmətinə görə pul ödəyir, bu xidmətdən gəlir əldə etməyi gözləyir (əmək haqqı formasında) [4, s. 160]. Təhsil xidmətlərinə yataqxana, ictimai iaşə, tibbi xidmətlər, idman mərkəzləri və s. Daxildir. Bu proseslər təhsil müddətində qarşılanır, təhsil alanların məişət və mədəni tələbləri ödənir, bu isə xarici təhsil alan tələbələrin, eyni zamanda ali məktəblərin işlərini asanlaşdırır. Hər bir universitetin beynəlxalq əməkdaşlıq imkanları bir sıra amillərdən: institutların ixtisaslaşması və onun resursları, beynəlmiləlləşməsi təcrübəsi, institutun regional- coğrafi mühitindən asılıdır. Qloballaşmanın yüksək sürətlə inkişaf etdiyi hazırkı təhsil xidmətləri sferasında ölkələrarası tərəfdaşlıq da güclənir. "Son illərdə təhsil xidmətlərinin qlobal bazarı yüz

milyard ABŞ dollarına çatıb. Təhsil xidmətləri bazarında aparıcı qüvvələr Böyük Britaniya, Almaniya, ABŞ, Fransa, Avstraliya, Çin, Yaponiya, Kanada və Rusiyadır [3, s. 18].

Hazırki dövrdə təhsil bazarında rəqabətin gücləndiyini nəzərə alaraq, strategiyalar daim təkmilləşdirilməlidir. İnteqrasiya prosesi sürətləndirilməlidir. Bu prosesin əsasını da məhz xarici tərəfdaşlıq əlaqələrinin sistemli qurulması təşkil edir. "Beynəlxalq ali təhsil bazarının potensialı təqribən 140 milyon tələbə hesab edilir. Bunların da təqribən 2,8 milyonu xaricdə təhsil alanlardır.

Təhsilə çəkilən xərclərin 70%-i büdcə xərcləri əsasında təmin edilir. Dünyanın bir çox inkişaf etmiş ölkələrində tələbələrə dövlət dəstəyi intensiv təşkil edir. Hazırda transmilli təhsilin inkişafı mühüm mövzulardan biridir. Transmilli təhsil dedikdə, təhsil xidmətlərinin, proqramlarının, kurslarının kompleksi, tələbənin öz ölkəsindən kənarda təhsil alması başa düşülür. Bu zaman beynəlxalq ekspertlər kütləvi şəkildə tələbələrin ölkə təhsilinə cəlb edilməsindən daha çox talantlı, yüksək istedada malik, iqtisadiyyatın inkişafı üçün geniş perspektivləri olan tələbələrin ölkə təhsilinə cəlb olunaraq, daha sonra əmək bazarının aparıcı işçi qüvvəsi kimi çıxış etmələrini üstün tuturlar. Beynəlxalq təhsilin tarixi hələ orta əsrlərə dayanır. İntibah dövründə latın dilindən istifadə etməklə, hətta müstəmləkəçilik illərində belə xaricdə təhsilə istiqamətlənmələr mövcud olmuşdur.

Qlobal tendensiyalar universitetlər kimi müxtəlif ali təhsil müəssisələrinin müxtəlif coğrafi səviyyələrdə əsas tədqiqat və təhsil mərkəzlərinə birləşdirilməsinə yönəlib. Bundan əlavə universitetlər müxtəlif ölkələrdəki sənaye kompleksləri ilə fəal şəkildə inteqrasiya olunur, elmi tədqiqatları asanlaşdırır və müasir biznes üçün mütəxəssislər hazırlayır.

Beynəlxalq tərəfdaşlığın spesifik sahələrinə aşağıdakılar daxildir:

1.Beynəlxalq və ya xarici təşkilatlarla əməkdaşlıq çərçivəsində təhsil və elmi proqramların hazırlanması və həyata keçirilməsi,

2.Yerli təhsil müəssisələrinin tələbələrinin, müəllim heyətinin və tədqiqatçılarınım xarici ölkələrin təhsil müəssisələrinə göndərilməsi, təqaüdlərin təmin edilməsi, eləcə də beynəlxalq mübadilə yolu ilə xarici tələbələrin, müəllimlərin və tədqiqatçıların təlim, ixtisasartırma və təhsil fəaliyyətinin inkişafı üçün yerli təhsil müəssisələrinə qəbul edilməsi,

3.Təhsil sahəsində birgə elmi tədqiqatların, fundamental və tətbiqi elmlərin əsaslarının araşdırılması, eləcə də innovativ fəaliyyətlərin birgə həyata keçirilməsi və s.

Hazırda Azərbaycan Respublikası da beynəlxalq təhsil arenasında öz sözünü deyən dövlətlər sırasındadır. Düzgün qəbul edilmiş istiqamətlə beynəlxalq tərəfdaşlıq əlaqələri ikitərəfli və çoxtərəfli sazişlərin imzalanması və buna dövlət nəzarəti ilə təmzimlənir. Azərbaycanlı tələbələrin xaricdə təhsil almaları üçün prosesin asanlaşdırılmasına dövlət siyasəti qəbul edilmiş strategiyalarda özünü göstərir. Bunlara "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Milli Proqram" təsdiq edilmiş, "Azərbaycan Respublikası ali təhsilinin beynəlxalq rəqabətliliyinə dair 2019-2023-cü illər üçün Milli Plan"ı təsdiq edilib.

Tələbələrin xaricdə təhsilini stimullaşdıran "2022-2028-ci il üzrə Dövlət Proqramı" tədbirlərdəndir. Bu Dövlət Proqramı çərçivəsində beynəlxalq əməkdaşlıq əhatəsi genişləndirilmişdir. Təsdiq olunmuş təhsil proqramlarının siyahısında 32 ölkəyə aid nüfuzlu ali təhsil müəssisələrində tədris olunan proqramlar yer alır. 221 nüfuzlu ali təhsil müəssisələrində tədris olunan 4405 proqram əhatə olunur, və hər yeni tədris ilində ehtiyac və tələblər nəzərə alınmaqla yeni ixtisaslar proqrama daxil edilir. Bu proqram çərçivəsində Böyük Britaniya, ABŞ, Kanada,

Almaniya, Fransa, İtaliya, Niderland, Çin, Türkiyə, Cənubi Koreya, İsveçrə, İsveç, Macarıstan və digər MDB ölkələrində tələbələr xaricdə təhsil alırlar. Bu proqramla xaricdə təhsil alan alan tələbələrin ölkələrə uyğun xərcləri tamam şəkildə ödənilir.

Azərbaycan Respublikasının təhsil naziri ilə Fransa Respublikasının Ümumtəhsil Nazirliyi arasında 2015-ci ildə Azərbaycan – Fransa universitetlərinə dair niyyət məktubu, Rusiya və Azərbaycanda ali təhsil müəssisələrinin birgə yaradılmasına dair niyyət memorandumu, 2016-2019 Azərbaycan Respublikası və Çin Xalq Respublikasının Təhsil Nazirliyi arasında təhsil sahəsində əməkdaşlığa dair anlaşma memorandumu imzalanmışdır. "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin Avropa ali təhsil məkanına inteqrasiyası ilə bağlı bəzi tədbirlərə görə" Azərbaycan Respublikası Prezidentinin medalı, Nazirlik arasında Azərbaycan Respublikasının Təhsil sahəsində tərəfdaşlıq sazişinin imzalanmasına icazə verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı xüsusi qeyd edilməlidir [1].

Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında dostluq, qonşuluq əlaqələri ilə yanaşı elm və təhsil sahəsində də beynəlxalq əlaqələr qurulmuşdur. Həmçinin, Azərbaycan Milli Elmlər Akademiyası ilə Belarus Milli Elmlər Akademiyası arasında 2007-2010-cu illər üzrə elmi əməkdaşlıq Proqramı, Azərbaycan Respublikası Təhsil Nazirliyi və Ukrayna Respublikası Təhsil Nazirliyi arasında "Təhsil sahəsində əməkdaşlıq haqqında" müqavilə hər iki ölkənin beynəlxalq əməkdaşlıq əlaqələrinin gücləndirilməsində təkan verən sənədlərdəndir. Bu sənədlərə digər ölkələr; Qazaxıstan, Özbəkistan, Gürcüstan dövlətləri arasında da beynəlxalq tərəfdaşlıq əlaqələri haqqında müqavilə və sazişlər imzalanmışdır. Bu əlaqələr mütəmadi şəkildə yenilənir, inkişaf etdirilir. Məsələn, son olaraq Çin Xalq Respublikası ilə (ÇXR) Azərbaycan Respublikası arasında əməkdaşlıq əlaqələri gücləndirilmiş, Hökumətlərarası Təqaüd Proqramları (HTP) çərçivəsində Çində təhsil asanlaşdırılmışdır. Eyni zamanda Çin Xalq Respublikasıda Azərbaycanlı vətəndaşlar üçün viza tələbinin aradan qaldırılması təlsbələrin maddi xərclərini xeyli yüngülləşdirmişdir. Artıq 2026-2027-ci tədris ili üzrə HTP çərçivəsində vətəndaşların ön qəbul sənədlərinin hazırlanması üçün təlimatlar verilmişdir.

Xarici vətəndaşların Azərbaycan Respublikasının ali təhsil ocaqlarında təhsili Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə təsdiq edilmiş Azərbaycan Respublikası vətəndaşlarının, xarici vətəndaşların və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında xaricdə təhsili qaydaları aiddir [4].

**Problemin aktuallığı.** Bu gün bütün dünyanı inkişaf etmiş cəmiyyətin təşəkkülü maraqlandırır. Müasir tələblərə cavab verən ali təhsil sistemi yaratmaq üçün şübhəsiz ki, hər bir dövlət qlobal təhsil məkanına inteqrasiya olunmağa çalışır. Məhz bu tendensiyalara cavab olaraq beynəlxalq təhsil və tərəfdaşlıq məkanı, yeni təşkilati strukturlar yaranır. Xaricdə təhsil sahəsində beynəlxalq tərəfdaşlıq anlayışı daim öz aktuallığını qoruyub saxlamaqdadır. Çünki bu fərqli mədəniyyətlərin ayrı -ayrı elementlərini, yenilikləri özündə ehtiva edir. Dünya dövlətlərinin inteqrasiya prosesləri beynəlxalq təhsil mübadilələrini gücləndirir.

**Problemin elmi yeniliyi.** Beynəlxalq tərəfdaşlıq çərçivəsində təhsil sahəsi fərdlərin və cəmiyyətin hərtərəfli inkişafına yönəlmiş çoxmədəniyyətli bir məkana çevrilir. İnsanlar bu sahədə qlobal dəyərlərlə tanış olurlar. Məqalə beynəlxalq tərəfdaşlıq anlayışının hərtərəfli araşdırılması baxımından əsaslı mənbələrə malikdir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədə əldə edilmiş nəticə və faktlar xaricdə təhsilin inkişafında yüksək rolu olan beynəlxalq tərəfdaşlıq amilinin düzgün dəyərləndirilməsi baxımından əhəmiyyətli mənbədir.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin Avropa ali təhsilə məkanınına inteqrasiyası ilə bağlı bəzi tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı [Elektron resurs] / Azərbaycan Respublikası Təhsil Nazirliyinin rəsmi sayti, - URL: http://edu.gov.az/az/page/299/759

2. Xarici ölkələrin ali təhsil müəssisələrində dövlət xətti ilə təhsilalan Azərbaycan vətəndaşlarının sayı [Elektron resurs] / Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmiinternet adresi http://www.stat.gov.az/source/education/

3. Арефьев, А.Л. Российские вузы на международном рынке О услуг / А.Л. Арефьев. – Москва: Центр социального прогнозирования, - 2007. – 700 с.

4. Почекина, В.В., Якубук, Ю.П. Международный рынок услуг, -Минск: НО ООО «БИП-С», - 2004. – 141 с

**L.M.Rəsulova**

**Xaricdə təhsil imkanlarının təkmilləşdirilməsində beynəlxalq tərəfdaşlıq amili**
**Xülasə**

Beynəlxalq təhsil mühitinin inkişafı, mövcud milli ənənələri və kimlikləri qoruyub saxlamaqla innovasiyanın geniş tətbiqi müasir dövrdə dünya dövlətlərinin əsas prioritet istiqamətlərindən biridir. Beynəlxalq iqtisadiyyat üçün ixtisaslı kadrların hazırlanması, bu kontekstdə beynəlxalq proqram və layihələrin əhəmiyyəti və rolu getdikcə artır. Azərbaycan Respublikasının təhsil sahəsində beynəlxalq tərəfdaşlıq əlaqələrinin qurulması dövlət səviyyəsində diqqətdə saxlanılır və normativ hüquqi aktlarla tənzimlənir.

**Л.М.Расулова**

**Фактор международного партнерства в улучшении возможностей образования за рубежом**
**Резюме**

Развитие международной образовательной среды, широкое применение инноваций при сохранении существующих национальных традиций и самобытности является одним из главных приоритетов стран мира в современную эпоху. Подготовка квалифицированных кадров для международной экономики, важность и роль международных программ и проектов в этом контексте постоянно возрастают. Установлению международных партнерских отношений в сфере образования Азербайджанской Республики уделяется внимание на государственном уровне и это регулируется нормативно-правовыми актами.

**L.M.Rasulova**

**The factor of internatıonal partnership in improving education opportunities abroad**

**Summary**

The development of the international educational environment, the widespread application of innovation while preserving existing national traditions and identities is one of the main priorities of the world's countries in the modern era. The training of qualified personnel for the international economy, the importance and role of international programs and projects in this context are increasingly increasing. The establishment of international partnership relations in the field of education of the Republic of Azerbaijan is paid attention to at the state level and is regulated by regulatory legal acts.

**Redaksiyaya daxil olub:** 02.03.2026